# Qələbənin şərəfinə



**Mahmud ƏHMƏD,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin professoru*

İlahidən bir arzum var,
Qələbəylə gəlsin bahar;
Qarabağda quraq mağar,
Qələbənin şərəfinə.

El sevinsin gözəl yaza,
Aşıq mizrab çəksin saza,
Şairlər də seir yaza,
Qələbənin şərəfinə.

Obasına köçsün ellər,
Sevincindən coşsun dillər,
Oxusun şeyda bülbüllər,
Qələbənin şərəfinə.

Nəğməsini desin bulaq,
Çiçəklənsin çəmən, yaylaq,
Şuşamıza gəlsin qonaq,
Qələbənin şərəfinə.

Artsın elin ruh, həvəsi,
Ucalsın xanəndə səsi,
Qarabağın şikəstəsi,
Qələbənin şərəfinə.

Sevinc gülüş olsun üzdə,
Süfrə açaq cıdır düzdə,
Deyib-gülək o gün biz də,
Qələbənin şərəfinə.

# İgid ordu

Düşmən üstə yürüşə qalx,
Döyüşə gir, vuruşa qalx,
Zəfərlərlə görüşə qalx,
Qov düşməni igid ordu,

Dağ ol, başın göyə dəysin,
Düşmən sənə qoy baş əysin.
Şuşa zəfər donu geysin,
Qov düşməni igid ordu,

Ellər doğma yurda ensin,
El sevinsin, çöl sevinsin,
Pənah xanın ruhu dinsin,
Qov düşməni igid ordu,

Qarı düşmən ova dönsün,
Aşıq sözə- sova dönsün,
Niskil, kədər qova dönsün,
Qov düşməni igid ordu,

Yaddan çıxmaz Şuşa dağı,
Qaralansın qara yağı,
Azad edək Qarabağı,
Qov düşməni igid ordu.

# Təcili yetir oğlum

Oğlum dedi xəstəsən,
Ata, həkim çağırım.
Dedim: həkim neyləsin,
Kəsilməzdi bu ağrım.
Ürəyində döyüntü,
Getdikcə artır ata;
Çağırım həkim gəlsin,
Bəlkə köməyi çata.
Oğlum həkim çağırdı.
Söylədim, aman həkim.
Ürəyimin dərdinə,
Əbəsdir dərman, həkim.
Şuşam üçün batmısam,
Dözülməz qəmə həkim.
Sənin verdiyin dərman,
Sağaldar, demə həkim.
Qarabağım, vətənim,
Gör necə darda qalıb.
Qarabağ xəstəsiyəm,
Dərman yazma nahaqdan,
Oğlum gül-çiçək gətir,
O eldən, o torpaqdan.
Boynu bükük bənövşə,
Bağrı yanıq lalə dər.
Həkimin dərmanı yox,
Xarıbülbül dirildər.
Şuşamızın suyundan,
Bir fincan gətir oğlum,
Ürəyimin dərmanın,
Təcili yetir oğlum.

# Nə gözəldir Bakımız

Gəzdikcə doymaq olmur,
Bağında gülü solmur,
Çilçıraqdır saçır nur,
Nə gözəldir Bakımız.

Gəzirəm oymaq-oymaq,
Təzələnib bağça-bağ,
Güllər qırmızı, göy, ağ,
Nə gözəldir Bakımız.

Ətir saçır gül-çiçək,
Çiçək açıb xoş dilək,
Sevinib gülür ürək,
Nə gözəldir Bakımız.

Hər yanda əmək gülür,
Torpağa tər tökülür,
Üzümə şəhər gülür,
Nə gözəldir Bakımız.

Hər bina sanki bir dağ,
Hər nəğmə ömrə çıraq,
Gül açıb ana torpaq,
Nə gözəldir Bakımız.

Dinir hər yaşıl budaq,
Alnıaçıq, üzüağ,
Nə gözəldir yaşamaq,
Nə gözəldir Bakımız.

Hamı göstərir hünər,
Hər işdə çalır zəfər,
Üzünə gülür bahar,
Nə gözəldir Bakımız.